**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**BERRİN MUTLU QIZI BÖLEK**

# AZƏRBAYCANIN XARİCİ TİCARƏT ƏLAQƏLƏRİNİN SƏMƏRƏLİLİYİNİN YÜKSƏLDİLMƏSİ İSTİQAMƏTLƏRİ

**5310.01- "Dünya iqtisadiyyatı"**

**İqtisad üzrə fəlsəfə doktoru elmi**
**dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**B A K I – 2014**

Dissertasiya işi Azərbaycan Dövlət İqtisad Universitetinin «Beynelxalq iqtisadi münasibətlər» kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| **Elmi rəhbər:** | iqtisad elmləri doktoru, professor<br>**Əvəz İslam oğlu Bayramov** |
| **Rəsmi opponentlər:** | iqtisad elmləri doktoru, professor<br>**İrşad Abdul oğlu Kərimli** |
| | iqtisad üzrə fəlsəfə doktoru<br>**Fuad Əlinağı oğlu Qənbərov** |
| **Aparıcı təşkilat:** | Bakı Dövlət Üniversiteti, Dünya iqtisadiyyatı Kafedrası |

Dissertasiyanın müdafiəsi « 29 » yanvar 2014 il saat 14.00 da Azərbaycan Dövlət İqtisad Universitetinin D 02.051 dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Az 1001, Bakı şəhəri, İstiqlaliyyət küçəsi 6, Azərbaycan Dövlət İqtisad Universitetinin dissertasiya şurası.

Dissertasiya işi ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat « » dekabr 2013-cü ildə göndərilmişdir.

**Dissertasiya şurasının**
**elmi katibi, i.ü.f.d.** **dos.Z.İ.Mustafayeva**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı**. Qlobal iqtisadi situasiyanın dəyişmə tezliyinin getdikcə intensivləşməsi, dünyanın əsas iqtisadi güc mərkəzlərində post-industrial cəmiyyət tipinin qərarlaşması bütövlükdə dünya iqtisadiyyatının inkişafında yeni eranın başlandığından xəbər verir.

Post-keçid dövrünü yaşayan ölkələrin, o cümlədən Azərbaycanın sürətlə dəyişən və yeniləşən qlobal iqtisadi münasibətlər sistemində əlverişli mövqe sərgiləməsi ilə ümummilli inkişafın davamlılığı və dayanıqlılığına nail olma arasında sıx qarşılıqlı bağlılıq formalaşmışdır.

Başqa sözlə, Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının uzunömürlülüyü qlobal təmayüllərə adekvat olan məqsədyönlü və sistemli iqtisadi islahatların aparılmasından, onun dünya təsərrüfat sisteminə inteqrasiyasının sürətləndirilməsinə xidmət edən səmərəli xarici iqtisadi əlaqələrin qurulmasından, xarici ölkələr və beynəlxalq iqtisadi təşkilatlarla ölkənin milli maraqlarına uyğun əlverişli ticarət-iqtisadi əlaqələrinin genişləndirilməsindən asılıdır.

Xarici ticarət əlaqələrinin genişləndirilməsi və dünya təsərrüfat sisteminə səmərəli inteqrasiyanın təmin olunması Azərbaycan Respublikasında həyata keçirilən iqtisadi islahatların strateji istiqamətlərindən biri kimi qəbul edilmişdir. Bu problemin həlli elmi-nəzəri cəhətdən əsaslandırılmış xarici iqtisadi siyasətin işlənib hazırlanmasını şərtləndirir. Ona görə də, real şəraitə uyğun siyasətin əsas prinsiplərinin, inkişafın qanunauyğunluqlarının araşdırılaraq üzə çıxarılması zərurəti yaranır.

Ulu öndər Heydər Əliyevin Respublikanın siyasi rəhbərliyinə qayıtması ilə onun iqtisadiyyatın bütün sahələrində apardığı uğurlu siyasəti, həyata keçirilən iqtisadi islahatları nəticəsində ölkədə qısa bir zamanda makroiqtisadi sabitliyə nail olundu və iqtisadiyyatın bazar prinsipləri əsasında yenidən qurulması, ölkədə yeni istehsal münasibətlərinin formalaşdırılması, təsərrüfat subyektlərinin xarici ticarət əlaqələrinin yaradılması istiqamətində radikal addımlar atılmağa başlandı.

Qloballaşma şəraitində dövlətin qarşısında xarici ticarət dövriyyəsinin artırılması ilə yanaşı, onun iqtisadi səmərəliliyinin yüksəl-

dilməsi problemləri də durur. Bu isə elmi-texniki tərəqqinin müasir nailiyyətlərindən daha səmərəli istifadə etməklə rəqabət qabiliyyətli mal və xidmətlərin istehsalını, bunların beynəlxalq bazarlara sərbəst çıxışının təmin edilməsini və s. problemlərin sistemli şəkildə həllinin vacibliyini ortalığa qoyur.

Dövlət başçısı cənab İlham Əliyevin "Azərbaycan 2020 – inkişaf konsepsiyasının" hazırlanması ilə bağlı imzaladığı fərman bütövlükdə ölkənin sosial-iqtisadi həyatının modernləşdirilməsi zəruriliyini kifayət qədər aktuallaşdırmış oldu.

Təbii olaraq bu cür mürəkkəb və çoxcəhətli məsələlərin həlli xarici ticarət əlaqələrinə sistemli yanaşma, kompleks tədqiqat, qiymətləndirmə üsullarının və iqtisadi-riyazi modellərin işlənməsini və tətbiqini zəruri etməklə yanaşı, sözügedən kompleksin konseptual-nəzəri bazasının müasirləşdirilməsinin və xarici ticarətin multiplikativ səmərəsinin daha da yüksəldilməsini tələb edir.

**Problemin öyrənilmə səviyyəsi**. Xarici ticarət əlaqələrinin səmərəliliyinin yüksəldilməsi istiqamətlərinin nəzəri-metodoloji əsaslarının öyrənilməsi, onun milli mənafelərin qorunub saxlanılması nöqteyi-nəzərindən inkişaf istiqamətlərinin müəyyənləşdirilməsində və iqtisadi səmərəliliyinin yüksəldilməsi yollarının axtarılıb tapılması sahəsində respublikanın iqtisadçı alimləri Ş.H.Hacıyev, Ə.İ.Bayramov, A.Ələsgərov, Z.Ə.Səmədzadə, R.T.Həsənov, Ə.Q.Əlirzayev, A.Ş.Şəkərəliyev, İ.Ə.Feyzullabəyli, R.M.Qasımov, F.Ə.Mürşüdli, M.İ.Bərxudarov, İ.A.Kərimli, F.Ə.Qənbərov, M.Q.Məmmədov, A.Ə.Əliyev, M.E.Quliyev, M.A.İbrahimov, və digərləri geniş tədqiqat işləri aparmışlar.

Problemin sistemli şəkildə və ayrı-ayrı ölkələr bölümündə araşdırılması prosesi xarici ölkə alimlərinin də həmişə diqqət mərkəzində olmuşdur. Belə ki, klassik qərb alimlərindən A.Smit, D.Rikardo, C.Mill, A.Marşal, F.Xayek, müasirlərdən isə P.Kruqman, V.Qruber, S.Linder, V.Kerr, Z.Samuelson, R.Vernon, türk alimlərindən H.Seyidoğlu, Ş.Yılmaz, Y.Bayraktutan, A.Kibritçioğlu, Ö.Çakmaz, rus alimlərindən V.Buqlay, İ.Livensev və digərləri konkert ölkə timsalında araşdırdığımız problemlə bağlı dəyərli əsərlər ortalığa qoymuşlar.

Aparılmış tədqiqat işlərində problemin ayrı-ayrı cəhətləri öyrənilmiş, elmi və praktiki baxımdan böyük əhəmiyyətə malik olan

nəticələr əldə olunmuşdur. Bununla belə, dəyişən qlobal situasiyaya uyğun olaraq beynəlxalq ticarət sistemində xarici ticarət əlaqələrinin modernləşdirilməsi və səmərəliliyinin multiplikativ təsirinin yüksəldilməsi üçün kompleks qiymətləndirmə metodlarının işlənməsinə zərurət yaranmışdır. Baxılan tədqiqat obyekti və predmetinin öz dinamizmi ilə fərqləndiyini, ildən-ilə Azərbaycanın xarici ticarət dövriyyəsinin sürətlə artdığını nəzərə alaraq, ölkəmizdə bazar münasibətlərinə əsaslanan iqtisadiyyatın təşəkkülü şəraitində beynəlxalq iqtisadi əlaqələr sistemində xarici ticarətin səmərəliliyi məsələlərinin öyrənilməsinə mütəmadi olaraq müraciət edilməsinin zəruriliyini aşkar etmiş olarıq. Bütün bunlar tədqiqat mövzusunun seçilməsini, aktuallığını, onun məqsəd və vəzifələrinin müəyyənləşdirilməsini şərtləndirmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin məqsədi, Azərbaycan Respublikasının xarici ticarət əlaqələrinin səmərəliliyinin yüksəldilməsinə imkan verən nəzəri və metodoloji məsələləri müasir şəraitə uyğun şəkildə təhlil edib, səciyyəvi xüsusiyyətlərini öyrənməkdən, zəruri konseptual ümumiləşdirmələr aparmaqla onun səmərəliliyinin qiymətləndirilməsinin və yüksəldilməsinin əsas istiqamətlərinin seçilməsi üsullarının işlənib hazırlanmasından ibarətdir.

Dissertasiya işində aşağıdaki vəzifələr qarşıya qoyulmuş və məntiqi ardıcıllıqla yerinə yetirilmişdir:

-xarici ticarətin nəzəri-konseptual bazasının müasir dövr və perspektiv inkişaf yoluna proyeksiyasının tədqiqi və modernləşmə zəruriliyinin qiymətləndirilməsi;

-post-keçid iqtisadiyyatlı ölkələrin beynəlxalq ticarət sisteminə qoşulma xüsusiyyətlərinin araşdırılması;

-azərbaycanın xarici ticarət əlaqələrinin sistemli tədqiqi;

-idxal-ixrac əməliyyatlarının struktur modernləşdirilməsi imkanlarının qiymətləndirilməsi;

-xarici ticarət şəraitinin təhlili və dəyişmə dinamikasının qiymətləndirilməsi;

-xarici ticarətin fəaliyyət mexanizminin təkmilləşdirilməsi zəruriliyinin əsaslandırılması;

-ölkənin xarici ticarət sisteminin inkişaf perspektivinin tədqiqi;

-xarici ticarətin liberallaşdırılması kontekstində DTT-na qoşulma prosesinin araşdırılması;

-xarici ticarətin mültiplikativ səmərəlilik səviyyəsinin yüksəldilməsi imkanlarının konseptual aspektdən dəyərləndirilməsi;

-xarici ticarətin inkişaf proqnozunun verilməsi.

**Tədqiqatın obyekti** mal və xidmətlərlə ticarət və bütövlükdə Azərbaycanın xarici ticarət əlaqələri kompleksidir.

**Tədqiqatın predmetini** beynəlxalq ticarətin məzmununda baş verən dəyişikliklərin dərk edilməsi və Azərbaycanın xarici ticarət əlaqələrinin səmərəliliyinin yüksəldilməsinin nəzəri, metodoloji və təcrübi məsələlərinin tədqiqi təşkil edir.

**Tədqiqatın nəzəri və metodoloji əsasları** klassik və müasir iqtisadçı – alimlərin nəzəri baxışları, müqayisəli üstünlüklər konsepsiyası və onun müxtəlif variasiyaları, rəqabət üstünlükləri konsepsiyası və P.Kruqmanın yeni xarici ticarət nəzəriyyəsindən ibarət olmaqla eklektik xarakterlidir.

Eyni zamanda, tədqiqatın konsepsiyasını formalaşdırarkən müstəqillik illərində Azərbaycanın xarici ticarət əlaqələrinə həsr edilmiş elmi-tədqiqat işlərinin nəticələrindən, xarici ticarət haqqında Prezident fərmanları və Milli Məclisin qəbul etdiyi hüquqi-normativ sənədlərdən, eləcə də beynəlxalq iqtisadi təşkilatların hesabatlarından geniş surətdə istifadə etmişik.

Tədqiqatın metodiki aparatı problemin sosial-iqtisadi təbiətinə və özünəməxsus spesifikasına uyğun olaraq tarixi-məntiqi, statistik, iqtisadi- riyazi üsullar və ekonometrik modelləşmə, sistemli-struktur və sistemli-funksional metodlardan təşkil olunmuşdur.

**Tədqiqatın əsas elmi yeniliyi.** dayanıqlı inkişaf probleminin getdikcə dərinləşməsi, ölkələrarası qarşılıqlı asılılığın sistemli xarakter alması və qlobal iqtisadi situasiyanın dəyişmə tezliyinin doğurduğu yeni meyl və təmayüllərə istinadla Azərbaycanın xarici ticarətinin səmərəliliyinin yüksəldilməsi yollarının konseptual şəkildə qiymətləndirilməsi və nəzəri ümumiləşdirmənin aparılmasıdır.

Konkret olaraq tədqiqat işinin elmi yeniliyi aşağıdakılardan ibarətdir:

-post-keçid ölkələrinin xarici ticarət modellərinin özünəməxsusluğu nəzəri cəhətdən qiymətləndirilmiş və hansısa xarici analoqun Azərbaycan gerçəkliyinə tətbiqi mümkünsüzlüyü aşkara çıxarılmışdır;

-müqayisəli təhlil əsasında Azərbaycanın xarici ticarət konsepsiyasının nəzəri-metodoloji aspektdən modernləşdirilməsi prinsipləri aşkara çıxarılaraq, sistemləşdirilmişdir;

-ölkənin xarici ticarət əlaqələrinin çoğrafiyası, strukturu və dinamikasında mövcud olan meyl və təmayüllər üzrə çıxarılmışdır;

-ekonometrik modelləşdirmədən istifadə etməklə xarici ticarət şəraiti empirik akspektdə dəyərləndirilmiş, idxal-ixrac əməliyyatlarının struktur modernləşdirilməsi imkanları aşkarlanmışdır.

-ölkənin Dünya Ticarət Təşkilatına qoşulma prosesi və üzvülükdən əldə ediləcək sosial-iqtisadi nəticələr konseptual-empirik nöqteyi-nəzərdən qiymətləndirilmişdir;

-xarici ticarətin səmərəlilik konsepsiyasının əsas struktur elementləri aşkarlanmış və nəzəri cəhətdən ümumiləşdirilmişdir;

-xarici ticarətin perspektiv inkişafının proqnoz modeli işlənib-hazırlanmışdır.

**Tədqiqat işinin praktiki əhəmiyyəti.** Tədqiqatlar nəticəsində işlənmiş modellər, təklif və tövsiyələr dünya təsərrüfatı sistemi və milli iqtisadiyyatın inkişaf xüsusiyyətləri nəzərə alınmaqla Azərbaycanın xarici ticarət əlaqələrinin genişləndirilməsi sahəsində mövcud olan problemlərin aşkarlanması, onların yaranma səbəblərinin öyrənilməsi və həllinə müsbət təsir göstərə bilər.

**Aprobasiya və tədqiqat nəticələrin tətbiqi.** Tədqiqat işinin əsas nəticələri və irəli sürülən təkliflər Respublikada keçirilən müxtəlif səviyyəli elmi-praktik konfranslarda, eləcə də “Bakı-Tbilisi-Ceyhan neft kəmərinin Beynəlxalq və regional əhəmiyyəti” mövzusunda 2002-ci ildə Bakı şəhərində keçirilən, “Azərbaycanda qadın və iş həyatı” mövzusunda 2006-cı ildə İstanbulda keçirilən və yenə 2006-cı ildə “Qloballaşdırmanı sürətləndirən amillər: internet və elektron ticarət” mövzusunda İstanbulda keçirilən və 2007-ci ildə “Beynəlxalq bazarlardakı son texnoloji inkişafın xarici ticarətə təsiri” mövzusunda Bakıda keçirilən beynəlxalq elmi konfranslarda müzakirə edilmiş və dərc olunan elmi məqalələrdə öz əksini tapmışdır.

Dissertasiya tədqiqatının məzmununda umumi həcmi 5,28 ç.v olan 18 məqalə və tezis, o cümlədən 2-si xaricdə dərc olunmuşdur.

**Tədqiqat işinin həcmi və quruluşu.** Dissertasiya işi giriş, 3 fəsil, 9 paragraf, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarət olmaqla 181səhifə həcmindədir. İşdə 17 cədvəl və 12 şəkil

vardır. Tədqiqat zamanı istifadə olunmuş ədəbiyyat siyahısı Azərbaycan, türk, rus və ingilis dillərində olan 135 sayda mənbədən ibarətdir.

## MÜNDƏRİCAT

**GİRİŞ**
**I fəsil. Beynəlxalq ticarət sistemi və post-keçid ölkələri: sistemli-inteqrativ prosesin nəzəri əsasları**
1.1.Xarici ticarət konsepsiyalarına müasir baxış
1.2.Post-keçid ölkələrinin dünya ticarət sisteminə inteqrasiyası qanunauyğunluqları və uyğunlaşma xüsusiyyətləri
1.3.Azərbaycanın xarici ticarətinin nəzəri bazası: modernləşmə zəruriliyi
**II fəsil. Azərbaycanın xarici ticarət əlaqələrinin sistemli tədqiqi**
2.1.Xarici ticarətin dinamikası, coğrafiyası və strukturunun təhlili
2.2.Xarici ticarətin struktur modernləşdirilməsi yollarının tədqiqi
2.3.Ölkənin xarici ticarət şəraitinin qiymətləndirilməsi
**III fəsil. Azərbaycanın xarici ticarətinin prioritetləri və inkişaf perspektivləri**
3.1.Azərbaycanın xarici ticarət sisteminin prioritetləri
3.2.Xarici ticarətin liberallaşdırılması və Ümumdünya Ticarət Təşkilatına üzvlük məsələləri
3.3.Xarici ticarətin inkişaf proqnozu və səmərəlilik konsepsiyasının əsas elementləri
**Nəticə**
**İstifadə olunmuş ədəbiyyat**
**Əlavələr**

## İŞİN ƏSAS MƏZMUNU

### 1.Post-keçid ölkələrinin dünya ticarət sisteminə inteqrasiyası qanunauyğunluqları və uyğunlaşma xüsusiyyətləri

Sistem dəyişikliyinə məruz qalmış ölkələr qrupunun (post-keçid ölkələri) sürətlə dəyişən dünyada, qlobal iqtisadi sistemdə layiqli yer

tutması problemi, keçid dövrünün başa çatmasına, real bazar münasibətlərinin təşəkkülü və vətəndaş cəmiyyəti quruculuğu prosesinin gerçək məzmun kəsb etməsinə baxmayaraq, öz aktuallığını saxlamaqdadır.

İqtisadi islahatların həyata keçirilməsində təkamüllülük onun mərhələ-mərhələ, habelə cari problemlərin həllində perspektiv inkişafa ziyan vurmadan reallaşdırılmasını əsas tutur. Milli iqtisadi modelin formalaşmasına iqtisadi ədəbiyyatda «sivilizasiya amilləri» adlandırılan xüsusiyyətlər də mühüm təsir göstərir. Adətən, bu amillər qrupuna uzun illər boyu formalaşmış, nəsildən-nəsilə keçmiş adət və ənənələr, mədəni, dini dəyərlər, habelə həyat tərzi aid edilir. Dövlətin iqtisadi siyasətində bu cəhətlərin nəzərə alınması milli mənafelərimizə cavab verən, keçmiş sovet inzibati-amirlik sistemindən miras qalmış inkişafın birtərəfli xarakterini aradan qaldırmağa və milli inkişaf modelinin qərarlaşmasına şərait yaradır.

Keçid mərhələsində həyata keçirilən iqtisadi islahatların xarakterinin nəzəri baxımdan tədqiqi bəzi ümumiləşdirmələr etməyə imkan verir. Təcrübə göstərir ki, səmərəli iqtisadi islahatlar modeli işləyib hazırlayaraq, optimal müddətdə və mümkün qədər az itkilərlə həyata keçirmək üçün hər şeydən əvvəl, ölkədə yaranmış mövcud sosial-iqtisadi və siyasi vəziyyət, iqtisadi inkişafın start vəziyyəti və mümkün qədər qısa müddətdə hərəkətə gətirilə bilən potensial qiymətləndirilməlidir. İkincisi, qarşıya qoyulan məqsəd strateji baxımdan aydın müəyyənləşdirilməlidir və nəhayət üçüncü mərhələdə qarşıya qoyulan məqsədə çatmaq üçün tədbirlər sistemi işlənib hazırlanmalıdır. SSRİ-nin dağılması, ənənəvi istehsal əlaqələrinin qırılması normal təkrar istehsal prosesini pozmuşdur. İlkin mərhələdə həyata keçirilən tədbirlər mümkün qədər normal təkrar istehsal prosesinin yeni keyfiyyətdə bərpasına və bütünlükdə iqtisadiyyatın normal strukturunun təkmilləşdirilməsinə istiqamətləndirilir.

Mövcud iqtisadi ədəbiyyata əsaslanaraq keçid mərhələsində yeni iqtisadi sistemin təşəkkülü və fəaliyyəti ilə bağlı həyata keçirilən tədbirlər sistemini, mexanizmini və idarəçilik vasitələrini və nəhayət sosial-iqtisadi mühiti sistem halında dərk etməyə çalışsaq, qarşılıqlı əlaqə və asılılıqda olan məntiqi sxemi alarıq.




*Şəkil 1.* ***Post-keçid ölkələrində iqtisadi islahatların inkişafla əlaqəsinin blok sxemi***

Beləliklə, post-keçid ölkələrin xarici iqtisadi əlaqələri sistemində iqtisadi islahatların xarakteri və prinsipləri, habelə onların reallaşma mexanizminin tədqiqi bizə belə bir qənaətə gəlməyə əsas verir ki, ümumiqtisadi inkişafın və sosial tərəqqinin vahid universal bir modeli yoxdur. Hər bir ölkə özünün siyasi inkişafının start vəziyyətinə, iqtisadi təhlükəsizlik və müstəqillik tələblərinə cavab verən xarici iqtisadi inkişaf modelini seçməlidir. Əlbəttə, bütün bu deyilənlər əsaslı iqtisadi islahatların həyata keçirilməsində dünya təcrübəsinin inkarı anlamına gəlmir. Aparılan iqtisadi islahatların neqativ sosial-iqtisadi nəticələrini azaltmaq və sağlam milli iqtisadi sistemi formalaşdırmaq üçün hökmən dünya təcrübəsi öyrənməli və milli inkişaf modelini işləyib hazırlayarkən onlar nəzərə alınmalıdır.

## 2.Azərbaycanın xarici ticarətinin nəzəri bazası: modernləşmə zəruriliyi

İnkişaf etmiş ölkələrin inkişaf tarixindən əldə edilən qənaətlər göstərir ki, dövlət müstəqilliyinin möhkəmləndirilməsi, ölkələrin bir-birindən asılılığının getdikcə güclənməsi, iqtisadi islahatların mürəkkəbləşməsi, hər şeydən əvvəl milli iqtisadiyyatın formalaşması və ölkənin beynəlxalq əmək bölgüsündə layiqli iştirakı respublikanın

xarici iqtisadi fəaliyyətinin konseptual əsaslarının modernləşmə tezliyindən birbaşa asılılıqdadır.

Azərbaycan müstəqilliyini əldə etdikdən sonra, iqtisadiyyatın bütün sahələrində olduğu kimi xarici ticarət sektorunda da geniş transformasiya prosesləri yaşamışdır. Yaşanan transformasiyalar bu sektorun həm fəaliyyət mexanizmlərini, həm də bütövlükdə onunla bağlı həyata keçirilən dövlət siyasətini əhatə etmişdir. Xarici ticarət əlaqələrinin qurulmasının planlı və inzibati mexanizmlərindən sərbəst müqavilələrə əsaslanan bazar mexanizmlərinə keçid təmin edilmiş və xarici ticarət siyasəti bu sahədəki beynəlxalq normalar və bazar iqtisadiyyatının müvafiq tələbləri nəzərə alınaraq formalaşdırılmaya çalışılmışdır.

Xarici ticarət siyasətinin prioritetlərini xarici kapital üçün ölkənin əlverişli olması imicini gücləndirmək, idxal və ixracın strukturunun təkmilləşdirilməsi, xarici imkanlardan faydalanmaqla qeyri-neft sektorunu inkişaf etdirmək, ixrac sektorlarında məşğulluğun artırılması, manatın dəyərinin qorunması, beynəlxalq maliyyə instutları ilə effektiv əməkdaşlığın davam etdirilməsi, xarici borcların səviyyəsinin davamlı nəzarət altında saxlanması və ölkənin xarici kapital və neft gəlirlərindən asılılığının azaldılması təşkil edir, həmçinin də qarşıdakı illərdə iqtisadiyyatın modernləşdirilməsi, "qara qızıl"ın insan kapitalına çevrilməsi, kreativ cəmiyyətin və iqtisadiyyatın formalaşdırılması dövlətin əsas hədəfləri sırasındadır, onda ölkənin xarici ticarət konsepsiyasının da tədricən müqayisəli üstünlüklər prinsipindən uzaqlaşaraq rəqabət üstünlükləri prinsipi əsasında qurulması tələb olunur.

Azərbaycanın xarici ticarət konsepsiyasının modernləşmə nöqteyi-nəzərindən aşağıdakı istiqamətləri əhatə etməsi zəruriliyini qeyd etmək mümkündür:

1. Strateji inkişaf istiqamətlər:

- elm, texnologiya və informasiya tutumlu məhsulların, eləcə də xidmət sferasının xarici ticarət dövriyyəsində prioritetliyinin təmini;
- ixracın dövlət həvəsləndirilməsi sisteminin təşkili;
- bazar subyektlərinin rəqabət qabiliyyətliliyinin yüksəldilməsi məqsədi ilə dövlət proqramlarının hazırlanması ;

- daxili bazarın ayrı-ayrı seqmentlərinin əhəmiyyətlilik dərəcəsi (strateji məqsədlər baxımından) qiymətləndirilməklə milli mənafelərə uyğun qorunması.

2. İxracat üzrə istiqamətlər:

- ölkənin ixrac potensialının formalaşdırılması və inkişaf etdirilməsi;

- ixracın strukturunun təkmilləşdirilməsi, əsas ağırlıq mərkəzinin elm-texnologiya tutumlu hazır məhsul və xidmətlər üzərinə keçirilməsi;

- ölkənin ixrac potensialının rəqabət üstünlüyü prinsipi əsasında qiymətləndirilməsi;

- ixrac yönümlü istehsalın inkişafı və modernləşdirilməsində xarici investisiyaların aktiv surətdə cəlb edilməsi.

3. İdxalat üzrə istiqamətlər:

- mühüm məhsul növlərinin daxili tələbatı ödəmək səviyyəsində istehsalının təşkili;

- ölkənin iqtisadi asılılığının azaldılması;

- idxalın strukturuna nəzarət edilməsi.

Azərbaycanın xarici ticarət konsepsiyası ilə bağlı qeyd etdiklərimizi ümumiləşdirməklə, bu konsepsiyanın formalaş-dırılmasında aşağıdakı metodoloji əsasların nəzərə alınması zəruriliyini göstərmək mümkündür:

- ilk növbədə nəzərə almaq lazımdır ki, uzun onilliklər ərzində əsas çıxış nöqtələrindən (strateji anlamda) biri kimi qəbul edilən «kiçik» ölkə hipotezi öz aktuallığını itirmişdir. Qloballaşma prosesi və informasiya cəmiyyəti quruculuğunun kütləvi xarakter alması ilə ayrıca götürülmüş bir ölkənin («kiçik» ya «böyük» olmasından asılı olmayaraq) dünya çapında söz sahibinə çevrilməsi tamamilə realdır və bunu Azərbaycanın misalında açıq-aydın şəkildə görmək mümkündür. Prosesin dönməz xarakter alması üçün sadəcə olaraq postindustrial cəmiyyətin tələbləri sisteminə uyğun olaraq xarici ticarət konsepsiyasını modernləşdirmək lazımdır.

- keçid dövrünün bitdiyini nəzərə alaraq, xarici ticarət strategiyasının seçimində dinamik üstünlüklərə əsaslanan rəqabət üstünlüyü prinsipinə öncəlik verilməklə yanaşı xarici ticarət siyasətinin innovasiya-investisiya siyasəti ilə konseptual bağlılığına nail olun-

malıdır. Məhz bu bağlılıq xarici ticarətin səmərəliliyinin yüksəldilməsində müstəsna rol oynayır.

- xarici ticarətin iqtisadi inkişafla sıx əlaqəsi nəzərə alınaraq, idxalı əvəzləyən sənayeləşmə strategiyası ilə ixrac yönümlü sənayeləşmə strategiyasının tətbiqi imkanları araşdırılmalı və ixrac yönümlü sənayeləşmə strategiyasına öncəlik verilməlidir.

- dövlət xarici ticarətdə proteksionist tədbirlərdən çəkinməməli və strateji xarici ticarət siyasətinin mümkün imkanlarından sistemli şəkildə yararlanmalıdır.

Ümumnəzəri aspektdən ölkənin xarici ticarət konsepsiyasının strateji məqsədlər nəzərə alınmaqla modernləşdirilməsi istiqamətində həyata keçirilməsi qısa bir müddət ərzində səmərəlilik göstəricilərini yüksəltmək iqtidarındadır. Məhz qeyd etdiyimiz yanaşma tərzinə istinadla apardığımız araşdırmalar xarici ticarətin səmərəlilik problemini konseptual olaraq ümumiləşdirməyə imkan vermişdir.

## 3. Azərbaycan xarici ticarətinin dinamikası, coğrafiyası və strukturunun təhlili

1991-ci ildə dövlət müstəqilliyi əldə etdikdən sonra Azərbaycan Respublikasının dünya iqtisadiyyatında tutduğu əlverişli təbii-coğrafi mövqe, bir tərəfdən xarici iqtisadi əlaqələrin milli mənafelər rakursunda inkişaf etdirməyə, digər tərəfdən onu xarici ölkələrin strateji mənafelərinin reallaşması məkanına, başqa sözlə, dünyanın əsas güc mərkəzlərinin çox vaxt bir-birinə zidd olan mənafe və maraqlarının rəqabət mərkəzinə çevrilməsinə gətirib çıxartdı. Eyni zaman intervalında baş verən digər hadisələr: Ermənistanla müharibə, ölkədaxilində separatizmin güclənməsi və həmin illərdə hakimiyyətdə olan qüvvələrin səriştəsizliyi respublikanı məhv olma dərəcəsinə gətirib çıxarmışdır. Haşiyəyə çıxaraq, qeyd edək ki, məhz Ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişi ilə (1993-cü il) ölkə dağılmaq təhlükəsindən xilas olmuş, unitar dövlət yaradılmış və milli inkişaf strategiyasının əsas sütun prinsipləri tətbiq edilməyə başlanmışdır.

Tədqiqat nəticəsində, 1991-2010-cu illərdə xarici ticarət əlaqələrinin həcmi, ticarət dövriyyəsi, ticarət əlaqələri qurulan ölkələrin sayı və əmtəə dövriyyəsi, habelə idxal və ixracın strukturunda əsaslı dəyişikliklər müşahidə edilmişdir (cədvəl 1).

*Cədvəl 1*

*Azərbaycan Respublikasının xarici ticarət əlaqələrinin dinamikası*

| İllər | Xarici ticarət dövriyyəsi | | | İdxal | | | İxrac | | | Saldo |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Məbləği milyon ABŞ dolları ilə | Əvvəlki ilə nisbətən artım | | Məbləği milyon ABŞ dolları ilə | Əvvəlki ilə nisbətən artım | | Məbləği milyon ABŞ dolları ilə | Əvvəlki ilə nisbətən artım | | Məbləği milyon ABŞ dolları ilə |
| | | milyon ABŞ dolları ilə | %-lə | | milyon ABŞ dolları ilə | %-lə | | milyon ABŞ dolları ilə | %-lə | |
| 1991 | 4 002,2 | | | 1 881,2 | | | 2 121,0 | | | 239,8 |
| 1995 | 1 304,9 | -125,7 | -8,8 | 667,7 | -110,2 | -14,2 | 637,2 | -15,5 | -2,4 | -30,5 |
| 2000 | 2 917,3 | 951,7 | 48,4 | 1 172,1 | 136,2 | 13,1 | 1 745,2 | 815,5 | 87,7 | 573,1 |
| 2005 | 8 558,4 | 1 427,0 | 20,0 | 4 211,2 | 695,3 | 19,8 | 4 347,2 | 731,7 | 20,2 | 136,0 |
| 2006 | 11 638,9 | 3 080,5 | 36,0 | 5 266,7 | 1 055,5 | 25,1 | 6 372,2 | 2 025,0 | 46,6 | 1 105,5 |
| 2007 | 11 771,7 | 132,8 | 1,1 | 5 713,5 | 446,8 | 8,5 | 6 058,2 | -314,0 | -4,9 | 344,7 |
| 2008 | 54 922,8 | 43 151,1 | 366,6 | 7 166,6 | 1 453,1 | 25,4 | 47 756,2 | 41 698,0 | 688,3 | 40 589,6 |
| 2009 | 20 818,2 | -34 104,6 | -62,1 | 6 119,7 | -1 046,9 | -14,6 | 14 698,5 | -33 057,7 | -69,2 | 8 578,7 |
| 2010 | 27 960,8 | 7 142,6 | 34,3 | 6 600,6 | 480,9 | 7,8 | 21 360,2 | 6 661,7 | 45,3 | 14 759,6 |

**Mənbə**: Cədvəl Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatlarına əsasında müəllif tərəfindən tərtib edilmişdir

Ölkənin ixrac-idxal əməliyyatlarının coğrafiyasında da əhəmiyyətli dəyişikliklər baş vermişdir. Ümumiyyətlə, son illərdə Azərbaycanla Avropa Birliyi ölkələri arasında xarici ticarət dövriyyəsinin həcmi 2 dəfəyə qədər artmışdır. Apardığımız araşdırmalar Azərbaycanın idxal-ixrac əməliyyatlarında birinci 10-a daxil olan ölkələrin dəyişmə dinamikasını üzə çıxarmağa imkan vermişdir (cədvəl 2). Sübut etməyə ehtiyac yoxdur ki, birinci 10-ğa daxil olan ölkələrin yerdəyişməsinin istiqaməti və dəyişmə tezliyi ölkənin xarici ticarət tərəfdaşları ilə qarşılıqlı əlaqələrinin sabitlik dərəcəsini və yekun olaraq səmərəlilik səviyyəsini qiymətləndirməyə imkan verir.

Azərbaycanın xarici ticarət əlaqələrinin təhlili göstərir ki, 1991-ci ildən başlayaraq həm idxal, ixrac, həm də xarici ticarət dövriyyəsinin həcmi azalmağa başlamışdır. İxracda bu proses 1997-ci ilə kimi, idxalda və xarici ticarət dövriyyəsində isə 1994-cü ilə kimi davam etmişdir. 1995-ci ildən etibarən makroiqtisadi sabitlik və artımın bərpa olunması istiqamətində mühüm irəliləyişlər əldə edilmiş, 1994-1997-ci illərdə mənfi saldo əhəmiyyətli dərəcədə azalmışdır. İdxalın həcmində 2000-ci ildən başlayaraq dinamik artım müşahidə olunmağa başlamış, ixracın həcmində isə 1999-2001-ci illərdə müşahidə edilən ardıcıl artım, 2002-ci ildə azalma əvəz etmişdir.

*Cədvəl 2*

*İdxal-ixrac əməliyyatlarında birinci 10-a daxil olan ölkələrin yerdəyişmə dinamikası*

| **Ölkələr** | **2006-cı il** | | | **2010-cu il** | | |
|---|---|---|---|---|---|---|
| | **İdxalat** | | | **İdxalat** | | |
| | **min dol.** | **xüsusi çək.** | **reytinq** | **min dol.** | **xüsusi çək.** | **Reytinq** |
| 1. Rusiya | 1181584,0 | 22,4% | 1 | 1145008,7 | 17,3% | 1 |
| 2. İngiltərə | 453765,9 | 8,6% | 2 | 302757,2 | 4,5% | 6 |
| 3. Almaniya | 403815,7 | 7,6% | 3 | 607067,6 | 9,2% | 3 |
| 4. Türkiyə | 385040,2 | 7,3% | 4 | 771442,4 | 11,7% | 2 |
| 5.Türkmənistan | 369007,2 | 7,0% | 5 | 13918,4 | 0,2% | 37 |
| 6. Ukrayna | 317512,3 | 6,0% | 6 | 465559,8 | 7,0% | 5 |
| 7. Çin | 222493,1 | 4,2% | 7 | 587618,7 | 8,9% | 4 |
| 8. ABŞ | 197949 | 3,7% | 8 | 206271,1 | 3,1% | 8 |
| 9. Yaponiya | 188293,7 | 3,5% | 9 | 146304,8 | 2,2% | 12 |
| 10. Finlandiya | 167732 | 3,2% | 10 | 39808,9 | 0,6% | 23 |
| **Ölkələr** | **2006-cı il** | | | **2010-cu il** | | |
| | **İxracat** | | | **İxracat** | | |
| | **min dol.** | **xüsusi çək.** | **reytinq** | **min dol.** | **xüsusi çək.** | **Reytinq** |
| 1. İtaliya | 2845408,2 | 13,1% | 1 | 7044153,9 | 32,8% | 1 |
| 2. İsrail | 684828,9 | 3,2% | 2 | 1744821,9 | 7,9% | 3 |
| 3. Türkiyə | 388144,8 | 1,8% | 3 | 170893,7 | 0,8% | 20 |
| 4. Fransa | 347503,4 | 1,6% | 4 | 1856523,6 | 8,4% | 2 |
| 5.Rusiya | 344259,4 | 1,6% | 5 | 773551,8 | 3,6% | 7 |
| 6. İran | 295901,6 | 1,3% | 6 | 124980,7 | 0,5% | 23 |
| 7.Gürcüstan | 285275,5 | 1,3% | 7 | 410969,4 | 1,9 | 9 |
| 8.Yunanıstan | 181983,0 | 0,8% | 8 | 255012,6 | 1,2% | 14 |
| 9.Tacikistan | 130897,3 | 0,6% | 9 | 8181,1 | 0,03% | 65 |
| 10.Qazaxstan | 105656 | 0,4% | 10 | 44591,4 | 0,2% | 35 |

**Mənbə:** Cədvəllər Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Ölkələr üzrə xarici ticarətin gömrük statiskası əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Cənab İlham Əliyevin ölkə prezidenti kimi fəaliyyətə başladığı 2003-cü ildən etibarən həyata keçirilən modernləşmə prosesi iri-miqyaslı investisiya axınlarının intensivləşməsi, neft hasilatının və neft ixracının sürətli artımı, iqtisadi inkişafın sürətlənməsi, əhalinin gəlirlərinin artımı və yoxsulluğun azaldılması istiqamətində mühüm nailiyyətlərin əldə olunması, bazar iqtisadiyyatına keçid dövrünün başa çatması ilə xarakterizə olunan prosesləri özünə ehtiva edir. İdxal

və ixracın həcmi ən yüksək səviyyəyə 2008-ci ildə çatmışdır. 1991-2010-cu illərdə xarici ticarət dövriyyəsinin dinamikası ilə yanaşı, ixrac və idxalın əmtəə strukturunda, habelə ticarət əlaqələri qurulan ölkələrin sayı və mal dövriyyəsində əsaslı dəyişikliklər müşahidə edilmişdir. 2009-cu illə müqayisədə, 2010-cu ildə xarici ticarət dövriyyəsi 34,1%, o cümlədən ixrac 45%, idxal isə 7,8% artmışdır.

Azərbaycanın xarici ticarət əlaqələrinin mal strukturunun təhlili göstərir ki, ölkənin idxal-ixrac əməliyyatlarında monostrukturlaşma meyli kifayət qədər güclü olmuşdur. İxracın monostrukturlaşmasında neft və neft məhsulları 94,1% təşkil etmişdir.




*Şəkil 2.* ***1994-2010-cu illərdə neft ixracı və xarici ticarət dövriyyəsinin dinamikası (milyard ABŞ dolları ilə)***

Əkonometrik təhlil göstərir ki, xarici ticarət dövriyyəsi ilə neft ixracı arasında sıx korrelasiya əlaqəsi var (əmsal – 0.99). Yəni neft ixracı artdıqca xarici ticarət dövriyyəsinin həcmi də artır.

Apardığımız təhlillər yaranmış situasiyanın bir sıra problemli məqamlarını üzə çıxarmağa imkan vermişdir:

1. ümumixracatda neft amilinin həlledici mövqelərə yiyələnməsi ən azı monostrukturlaşma baxımından müəyyən təhdidlər yarada bilər;

2. xarici ticarət dövriyyəsində müşahidə edilən lokal təmərküzləşmə; ixracın diversifikasiyası həm məhsul, həm də ölkələr, regionlar bölümündə genişləndirilməlidir.

3. bir ölkə bir məhsul asılılığından uzaqlaşma zərurəti.

## 4. Ölkənin xarici ticarət şəraitinin qiymətləndirilməsi

Qloballaşma prosesinin məntiqi nəticəsi kimi dünya ölkələri arasında qarşılıqlı bağlılıq və qarşılıqlı asılılığın artan sürətlə güc-

lənməsi milli iqtisadi təhlükəsizliyin qorunub saxlanılması, eləcə də valyutadaxilolmalarının sabit templərlə çoxalması zəruriliyi bütövlükdə, xarici iqtisadi siyasətin, xüsusilə idxal-ixrac əməliyyatlarının səmərəliliyini daima nəzarətdə saxlamağı obyektiv zərurət kimi ortalığa qoyur.

Problemin təsviri və qoyuluş tərzi onunla əsaslandırıla bilər ki, (sırf praqmatik nöqteyi-nəzərdən), ixrac, eləcə də idxal ölkənin ümumiqtisadi inkişaf strategiyasında son dərəcə mühüm rol oynayır. Məsələn, idxalat, eləcə də ixracat sferasında həyata keçirilən siyasət bütövlükdə daxili iqtisadi siyasətlə sıx bağlılıqdadır və yekun etibarı ilə ölkənin ümummilli inkişaf strategiyasını əks etdirirlər.

Azərbaycanın indiki sosial-iqtisadi vəziyyəti beynəlxalq bazarlara inteqrasiyasının sürətləndirilməsi üçün zəruri olan möhkəm xarici ticarət əlaqələri özülünün yaradılması ilə səciyyələnir. Beynəlxalq iqtisadi münasibətlər sisteminə bərabər hüquqlu inteqrasiya, dünya iqtisadiyyatında formalaşan ixtisaslaşma səviyyəsinə uyğun beynəlxalq əmək bölgüsündə iştirak etməklə iqtisadi səmərə əldə etmək xarici ticarət əlaqələrinin əsas məqsədlərindəndir.

Hal-hazırda Azərbaycanın xarici ticarət modelinin istehsal-sərmayə-ticarət xarakterli model şəklində formalaşması prosesi gedir. Ölkənin xarici ticarət əlaqələrinin səviyyəsini xarakterizə edən daxili özünəməxsusluğu aşağıdakı kimi qruplaşdırmaq olar:

- məhsul istehsalının yüksək enerji-xammal tutumluğu və məsrəfliliyi;
- ölkənin iqtisadi rayonları arasında inkişaf səviyyələrinin fərqliliyi;
- biznes və marketinq sahəsində zəruri informasiyaların, müasir təcrübənin və adekvat infrastrukturun lazımi səviyyədə olmaması;
- əmək məhsuldarlığının arzuedilən səviyyədə olmaması;
- iqtisadi bürokratizmin ətalətliliyi, istehsalın modernləşdirilməsinin idxal və xarici sərmayədən yüksək asılılıq dərəcəsi (son dövrlərdə bu asılılıq kifayət qədər azalmışdır);
- rəqabətə az davamlı və müasir standartlara cavab verməyən texnologiyadan istifadə olunması, istehsalın təşkili və idarə olunmasında ənənəvi metodlara üstünlük verilməsi;
- MDB ölkələri ilə olan ənənəvi təsərrüfat və ticarət-iqtisadi əlaqələrin zəifləməsi.

Ölkənin xarici ticarət dövriyyəsində zaman-zaman yaranan problemli situasiya ticarəti həyata keçirilən malların miqdar və qiymətlərindəki qeyri-müəyyənlik xarici risqlərə məruz qalma meylini şərtləndirir. Bu baxımdan Azərbaycanda xam neft və neft emalı məhsullarının istehsalında və ixracında, həmçinin bu məhsulların dünya bazarlarındakı qiymətlərində müşahidə edilən dəyişmələr ölkənin xarici ticarətindəki başlıca risk ünsürlərini təşkil edir.

Beynəlxalq ticarət münasibətlərinin liberallaşma dərəcəsinin böyüklüyünə baxmayaraq, ziddiyətli məqamların mövcudluğu inkişaf etmiş ölkə bazarlarını post-keçid ölkələri (o cümlədən, inkişaf etməkdə olan ölkələr) üçün bir növ «qapalı» hala gətirmişdir.

Müasir dövrün reallıqları sırasında diqqət çəkən məqamlardan biri, xidmət ticarətinin əsas yerlərdən birini tutmasıdır. Dünyada baş verən qloballaşma və beynəlmiləlləşmə meylləri xarici ticarətdə xidmətlərin olduqca müxtəlif formalarını üzə çıxarmış və dünya ticarətində onun rolunu xeyli artırmış, əslində isə xarici ticarətin struktur modernləşdirilməsi və ticarət şərtinin yaxşılaşdırılması nöqteyi-nəzərindən önəmli əhəmiyyət daşımaqdadır.

Dünya ticarət sisteminin və xarici ticarətin müasir inkişaf meylləri, müəyyən dövlətlərin iqtisadi bloklarda birləşməklə təsir dairələrinin regional zonalarının yaranması və ölkənin də bu bloklarda iştirakı, onun beynəlxalq aləmdə layiqli yer tutmasına, səmərəli xarici ticarət siyasətinin həyata keçirilməsinə əlverişli zəmin yaradır.

Müasir dövrün sosial-iqtisadi təbiətindən çıxış etməklə, göstərmək olar ki, Azərbaycanın ixrac potensialının inkişafı və əsas makroiqtisadi göstəricilərin yüksələn xəttlə artımı, digər tərəfdən xarici ticarətin multiplikativ səmərəsinin dayanıqlı xarakter alması ilk növbədə həm daxili, həm də xarici iqtisadi fəaliyyətin diversifikasiya dərəcəsindən asılı olaraq reallaşa bilər.

## 5.Azərbaycanın xarici ticarət sisteminin prioritetləri

Araşdırmalarımız göstərir ki, son dövrlərdə Azərbaycan Respublikasının xarici ticarət əlaqələrinin ümumi inkişaf səviyyəsində müsbət dəyişikliklər müşahidə edilirsə də idxal və ixracın mal strukturunun səmərəli olmadığı görünür. Belə ki, idxal istehlak xarakterli, ixrac isə xammal yönlüdür.

Azərbaycanın modernləşdirilməsi istənilən xarici ticarət modelinin əsas ağırlıq mərkəzi kimi xarici ticarət əməliyyatlarının səmərəliliyinin konseptual əsaslarının işlənib hazırlanması üzərinə düşür. Xarici ticarətin səmərəliliyini yüksəltmək üçün son illərdə ölkədə məqsədyönlü islahatlar aparılır, dünya dövlətləri ilə ticarət-iqtisadi əlaqələr inkişaf etdirilir, ölkəyə xarici investisiyaların cəlb edilməsi sahəsində geniş tədbirlər həyata keçirilir.

Ümumiyyətlə, xarici ticarətin əsas prioritetləri sırasında ixracatın stimullaşdırılması və bu sferaya yönəldilən dövlət dəstəyinin səmərəli sisteminin qurulması problemi ön yerlərdən birini tutur.

İxraca dövlət dəstəyi sistemi müxtəlif iqtisadi, təşkilati və informasiya dəstəyi ilə bağlı tədbirlər kompleksindən ibarətdir.

Makroiqtisadi səviyyədə, o cümlədən xarici ticarət siyasəti ilə bağlı tədbirlər;

-ixracın və ixrac yönümlü istehsalın kreditləşməsi və əməliyyatların sığortalanmasında dövlətin iştirakı;

-ixracın inkişafına təşkilatı – informasiya dəstəyinin müxtəlif alətləri.

İxraca dövlət dəstəyi və həvəsləndirmə sisteminin vacib istiqamətlərindən biri ixracın maliyyələşdirilməsi sisteminin təkmilləşdirilməsi məqsədilə dövlətin ixrac əməliyyatlarının və ixrac yönümlü istehsalın kreditləşdirilməsində iştirakı çıxış edir. Bu baxımdan, Azərbaycanda ixracın kreditləşdirilməsi prosesinin təşkili və reallaşdırılmasının optimal işlək mexanizminin seçilməsi məsələsi xüsusi ilə mühümdür. Bu məqsədlə, araşdırma prosesində ixracın maliyyələşdirilməsi institutlarının yaradılması və fəaliyyətinin dünya təcrübəsi öyrənilmiş, bir sıra xarici ölkələrin ixraca dövlət dəstəyi modelləri tədqiq olunmuşdur.

Azərbaycan Respublikasının xarici ticarət siyasətini daxildə və beynəlxalq aləmdə yüksək səviyyədə təbliğ etmək məqsədi ilə əlaqələrin geniş və etibarlı şəbəkəsinin yaradılması da qarşıda duran ən zəruri məsələlərdən biridir.

Müasir dövrdə xarici ticarət əlaqələrinin təkmilləşdirilməsi istiqamətlərinin müəyyənləşdirilməsinə sistemli yanaşma nöqteyi-nəzərindən onu xarakterizə edən başlıca amillərin (iqtisadi, istehsal texnoloji, sosial-ictimai və hüquqi) tədqiq edilməsi zəruri məsələlərdəndir.

Buna görə də, müasir dövrün spesifikası və ölkənin modernləşmə mərhələsində olduğunu nəzərə alaraq, inkişaf səviyyəsindən asılı olmayaraq heç bir regional qurumla münasibətlərdə biliteral asılılığın formalaşmasına imkan verilməməlidir. Bunun həyata keçirilməsi üçün xarici ticarət fəaliyyətinin coğrafi təmərküzləşməsinə heç cür yol verilməməli, hər vəchlə multiliteral əlaqələrin inkişaf etdirilməsinə çalışmalıdır.

## 6. Xarici ticarətin inkişaf proqnozu və səmərəlilik konsepsiyasının əsas elementləri

Modernləşmə prosesinin sürətlə getdiyi bir şəraitdə ölkənin qarşısında duran həlli vacib problemlərdən biri xarici ticarət dövriyyəsinin dayanıqlı şəkildə artım və iqtisadi səmərəliliyinin yüksəldilməsi ilə əlaqədardır. Bu da, öz növbəsində xarici ticarət əlaqələrinin struktur təkmilləşdirilməsi, elmi-texniki tərəqqinin nailiyyətlərindən səmərəli istifadə etməklə rəqabət qabiliyyətli mal və xidmətlərin istehsalını, bunların dünya bazarlarına sərbəst çıxışının təmin edilməsini tələb edir.

Ticarət-sistem yaradan element kimi ölkənin dayanıqlı inkişafının təminatında mühüm rol oynamaqla yanaşı, sosial-iqtisadi sferanın əksər ünsürləri ilə sıx qarşılıqlı bağlılıqdadır. Ölkənin xarici ticarət əlaqələrinin inkişaf proqnozunu məhz həmin bağlılıqda həyata keçirməyi məqsədəuyğun hesab etmişik.

ÜDM-la xarici ticarət göstəriciləri arasında qarşılıqlı asılılığı tədqiq etmək məqsədilə çox reqressiyalı modeldən yararlanmışıq. Sıx qarşılıqlı təsirdə olan göstəriciləri seçməklə korrelyasiya əmsalları matrisi əsasında xarici ticarətin ÜDM-a təsiri dərəcəsini aşkarlamışıq.

Cədvəl 3-dən göründüyü kimi, seçilmiş göstəricilərin bir-birinə təsiri yüksək olsa da, adambaşına ÜDM göstəricisi ilə əlaqə sıxlığı aşağıdır. Bu fakt, əvvəldə də qeyd etdiyimiz kimi, onu göstərir ki, ÜDM-un sahə strukturunun dəyişməsinə xüsusi diqqət yetirmək lazımdır.

*Cədvəl 3*

*Çox reqressiyalı modelin nəticələri və ikili korrelyasiya*

*əmsallarının matrisası*

| Illər | Göstəricilər | | | | | |
|---|---|---|---|---|---|---|
| | UDM adam başına (y) | adam başına milli gəlir (x1) | adam başına XTD (x2) | adam başına BXİ (x3) | adam başına idxal (x4) | adam başına ixrac (x5) |
| 1997 | 513.2 | 0.5 | 0.2 | 0.5 | 0.1 | 0.1 |
| 1998 | 570.6 | 0.6 | 0.21 | 0.51 | 0.14 | 0.1 |
| 1999 | 582.9 | 0.6 | 0.25 | 0.52 | 0.13 | 0.1 |
| 2000 | 662.9 | 0.6 | 0.36 | 0.53 | 0.15 | 0.2 |
| 2001 | 710.5 | 0.7 | 0.46 | 0.54 | 0.18 | 0.3 |
| 2002 | 768.9 | 0.8 | 0.47 | 0.55 | 0.2 | 0.3 |
| 2003 | 888.5 | 0.9 | 0.63 | 0.56 | 0.32 | 0.3 |
| 2004 | 1 048.5 | 1 | 0.85 | 0.57 | 0.42 | 0.4 |
| 2005 | 1 579.8 | 1.2 | 1.01 | 0.58 | 0.5 | 0.5 |
| 2006 | 2 471.6 | 1.5 | 1.36 | 0.59 | 0.62 | 0.7 |
| 2007 | 3 841.7 | 2.2 | 1.36 | 0.77 | 0.66 | 0.7 |
| 2008 | 5 603.3 | 3 | 6.26 | 0.78 | 0.82 | 5.4 |
| 2009 | 5 018.2 | 3.3 | 2.34 | 0.61 | 0.69 | 1.7 |
| 2010 | 5 797.8 | 3.6 | 3.11 | 0.92 | 0.73 | 2.4 |
| 2011 | 5 530.8 | 4.3 | 3.99 | 0.95 | 1.07 | 2.9 |
| Ikili korrelyasiya əmsalların matrisası | | | | | | |
| - | Y | $x_1$ | $x_2$ | $x_3$ | $x_4$ | $x_5$ |
| Y | 1 | 0.49 | 0.47 | 0.0805 | 0.55 | 0.43 |
| $x_1$ | 0.49 | 1 | 0.85 | 0.8 | 0.95 | 0.79 |
| $x_2$ | 0.47 | 0.85 | 1 | 0.66 | 0.84 | 0.99 |
| $x_3$ | 0.0805 | 0.8 | 0.66 | 1 | 0.81 | 0.6 |
| $x_4$ | 0.55 | 0.95 | 0.84 | 0.81 | 1 | 0.77 |
| $x_5$ | 0.43 | 0.79 | 0.99 | 0.6 | 0.77 | 1 |

Göstəricilər üzrə çox repressiyalı model çərçivəsində apardığımız hesablamalar aşağıdakı repressiya tənliyini ortalığa qoymuşdur:

$$Y = 42.2727-105.7305X_1-1902.6041X_2 + 1532.337X_3 + +644.0104X_4 + 1939.9854X_5$$

*Cədvəl 4*

*Proqnozun və çox reqressiya tənliyinin nəticələri*

| Illər | Adam başına UDM, min doll | Xarici Ticarət Dövriyyəsi mln. doll | Idxal mln. doll | Ixrac mln. doll | Saldo mln. doll | Reqressiya nəticələri, min doll | Xüsusi çəkisi, % |
|---|---|---|---|---|---|---|---|
| 1997 | 513,2 | 1 575,70 | 794,4 | 781,3 | -13,1 | - | - |
| 1998 | 570,6 | 1 682,60 | 1 076,50 | 606,1 | -470,4 | - | - |
| 1999 | 582,9 | 1 965,60 | 1 035,90 | 929,7 | -106,2 | - | - |
| 2000 | 662,9 | 2 917,30 | 1 172,10 | 1 745,20 | 573,1 | - | - |
| 2001 | 710,5 | 3 745,30 | 1 431,10 | 2 314,20 | 883,1 | - | - |
| 2002 | 768,9 | 3 832,90 | 1 665,50 | 2 167,40 | 501,9 | - | - |
| 2003 | 888,5 | 5 216,60 | 2 626,20 | 2 590,40 | -35,8 | - | - |
| 2004 | 1 048,50 | 7 131,40 | 3 515,90 | 3 615,50 | 99,6 | - | - |
| 2005 | 1 579,80 | 8 558,40 | 4 211,20 | 4 347,20 | 136 | - | - |
| 2006 | 2 471,60 | 11 638,90 | 5 266,70 | 6 372,20 | 1 105,50 | - | - |
| 2007 | 3 841,70 | 11 771,70 | 5 713,50 | 6 058,20 | 344,7 | - | - |
| 2008 | 5 603,30 | 54 926,00 | 7 170,00 | 47 756,00 | 40 586,00 | - | - |
| 2009 | 5 018,20 | 20 824,50 | 6 123,10 | 14 701,40 | 8 578,30 | - | - |
| 2010 | 5 797,80 | 27 960,80 | 6 600,60 | 21 360,20 | 14 759,60 | - | - |
| 2011 | 5 530,80 | 36 326,90 | 9 756,00 | 26 570,90 | 16 814,90 | 740,76 | 13,4 |
| 2012 | 5855,887 | 35668,78 | 7259,601 | 21908,17 | 14648,56 | 716,39 | 12,2 |
| 2013 | 6483,713 | 39701,64 | 7836,257 | 24159,26 | 16323 | 746,29 | 11,5 |
| 2014 | 7135,603 | 43878,65 | 8398,876 | 26391,25 | 17992,38 | 749,24 | 10,5 |
| 2015 | 7794,377 | 48112,36 | 8917,758 | 28612,37 | 19694,62 | 732,44 | 9,4 |
| 2016 | 8454,563 | 52403,8 | 9387,396 | 30865,01 | 21477,62 | 724,50 | 8,6 |
| 2017 | 9094,743 | 56664,42 | 9789,743 | 33089,36 | 23299,62 | 608,73 | 6,7 |
| 2018 | 9693,831 | 60712,09 | 10085,32 | 35144,46 | 25059,14 | 510,63 | 5,3 |
| 2019 | 10234,16 | 64582,81 | 10340,9 | 36756,5 | 26415,6 | 451,06 | 4,4 |
| 2020 | 10692,9 | 68322,4 | 10574,8 | 37936,39 | 27361,59 | 361,96 | 3,4 |
| 2021 | 11097,54 | 71672,17 | 10762,96 | 38474,89 | 27711,93 | 646,46 | 5,8 |
| 2022 | 11494,1 | 74600,71 | 10968,54 | 38620,21 | 27651,68 | 733,05 | 6,4 |
| 2023 | 11971,78 | 76566,56 | 11140,85 | 37941,23 | 26800,38 | 523,99 | 4,4 |
| 2024 | 12643,41 | 82690,33 | 11847,96 | 42033,32 | 30185,35 | 998,04 | 7,9 |
| 2025 | 13217,46 | 86021,07 | 12056,37 | 42620,31 | 30563,94 | 718,08 | 5,4 |

**Mənbə:** Cədvəl ekonometrik modelləşdirmə (çox reqressiya tənliyinin nəticələri) əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Sözü gedən tənliyin həlli gələcəkdə adambaşına düşən ÜDM-un hansı dərəcədə xarici ticarətdən, ticarət əməliyyatlarının səmərəliliyindən asılı olacağını aşkarlamağa imkan vermişdir. Hesablamalarımız nəticəsində 2025-ci ilə qədər adambaşına düşən ÜDM və xarici ticarət dövriyyəsinin proqnoz modeli qurulmuşdur (cədvəl 4). Eyni zamanda, müəyyən etmişik ki, mövcud təmayüllərin dəyişməyəcəyi təqdirdə ölkə xarici iqtisadi aktivliyin aşağı düşməsi ilə qarşılaşa bilər.

Səmərəli xarici ticarət siyasətinin həyata keçirilməsi üçün aşağıdakı bəzi zəruri məsələlərin həlli vacibdir:

-ölkənin malik olduğu rəqabət üstünlüklərinə, iqtisadi potensialına uygun olaraq iqtisadi ixtisaslaşmanın daha da dərinləşdirilməsi;

-məhsulun beynəlxalq bazarlarda rəqabət qabiliyyətliliyinin yüksəldilməsi məqsədilə elmi-texniki tərəqqinin müasir nailiyyətlərindən maksimum faydalanması, standartlaşdırma və sertifikatlaşdırma sahəsində beynəlxalq təcrübənin dərindən mənimsənilməsi;

-nəqliyyat və kommunikasiya əlaqələrinin sistemli şəkildə inkişaf etdirilməsi;

-sahibkarlıq subyektlərinin beynəlxalq bazarlara sərbəst çıxışının müxtəlif vasitələrlə təmin edilməsinin dövlət tərəfindən stimullaşdırılması;

-sənaye sahələri ilə yanaşı, kənd təsərrüfatının, emaledici və xidmət sahələrinin də paralel inkişaf etdirilməsi;

- müxtəlif iqtisadi vasitələr və mexanizmlərlə daxili bazarın qorunması və s.

**Dissertasiyanın mövzusu üzrə müllifin aşağıdakı işləri çap edilmişdir:**

1. Bölek B.M. Bakü-Ceyhan Boru Hattı Projesinin Azerbaycan Ekonomisine Yakın Dönem Etkisi. "Bakı-Tbilisi-Ceyhan Neft Kəmərinin Beynəlxalq və Regional əhəmiyyəti" mövzusunda Beynəlxalq Konfrans materialları, Azərbaycan Respublikası Təhsil Nazirliyi Azərbaycan Respublikası yanacaq və enerji Nazirliyi, Qafqaz Universiteti, Azərbaycan Respublikası Dövlət Neft Şirkəti, Bakı, 2000, 0,08 ç.v.

2. Bölek B.M.(U.A Bölek ilə birgə) Etik, Estetik ve Etnisite, Atatürk Alatoo Universiteti Academıc Studıes,Bişkek, 0,24 ç.v.

3. Bölek B.M (U.A Bölek ilə birgə) Sovyetler Birliği Sonrası Hazar Denizinin Yeni Statüsü, Azərbaycan Respublikası Təhsil Nazirliyi Azərbaycan Beynəlxalq Universiteti Nəsrəddini Tusinin 800 illik yubileyine həsr edilmiş Respublika elmi konferansı materialları, Bakı, 2001, 0, 24 ç.v.

4. Bölek B.M. (U.A Bölek ilə birgə) Küreselleşmeyi Hızlandırıcı Faktörlerden, İnternet ve Elektronik Ticaret, Qafqaz

Universiteti, "Globallaşma prosesində Qafqaz və Mərkəzi Asiya. İqtisadi və beynəlxalq münasibətlər" II. Beynəlxalq Konqres materialları, Bakı, 2007, 0,24 ç.v.

5. Bölek B.M. (U.A Bölek ilə birgə) Türkiye'de E: Ticaretin Gelişim Süreci ve Devlet Politikaları, Baki Dövlət Üniverstiteti, Azərbaycan Texniki Universiteti, Qafqaz Universiteti, "Elm və Təhsildə İnformasiya-Kommunikasiya Texnologiyalarının Tətbiqi" Beynəlxalq Konfrans materialları, Bakı, 2007, 0,24 ç.v.

6. Bölek B.M. Beynəlxalq Bazarlardakı Son Texnoloji İnkişafın Xarici Ticarətə Təsiri, Beynəlxalq İqtisadi Əlaqələrin İnkişafında Regionların Rolu və Əhəmiyyəti, Naxçıvan Dövlət Universtiteti, "Bəynəlxalq İqtisadi Əlaqələrin İnkişafında Regionların Rolu və Əhəmiyyəti", Beynəlxalq Elmi Konfrans materialları, Naxçıvan, 0,08 ç.v.

7. Bölek B.M. (U.A Bölek ilə birgə) Azerbaycan'da Kadın ve İş Hayatı, İstanbul Üniversitesi İktisat Fakültesi, Metodoloji ve sosyoloji Araştırmalar Merkezi, İstanbul, 2008, 1,44 ç.v.

8. Bölek B.M. Beynəlxalq ticarət nəzəriyyələrində müasir inkişaflar, Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu Elmi Əsərlər, 2/2010, Bakı, 0,24 ç.v.

9. Bölek B.M. Son teknolojik Gelişmelerin uluslararası pazarlara ve dış ticarete etkileri, Naxçıvan Dövlət Universtiteti, Beynəlxalq İqtisadi Əlaqələrin İnkişafında Regionların Rolu və Əhəmiyyəti, Beynəlxalq Elmi Konfrans Konfrans materialları, Naxçıvan, 2009, 0,08 ç.v.

10. Bölek B.M. Globalleşen Dünyada Azerbaycan Harici Ticareti, Azərbaycan Qafqaz Universiteti, "Globalleşme Prosesinde Qafqaz ve Merkezi Asya", Beynəlxalq Elmi Konfrans materialları, Bakı, 2010, 0,08 ç.v.

11. Bölek B.M. Küresel Mali Krizin Azerbaycan' Olumsuz etkilerinin Azaltılmasında Yabancı Girişimcilerin Rolü, Manisa-Celal Bayar Üniversitesi "Uluslararası Girişimcilik Kongresi" materialları, Manisa 2012, 0,4 ç.v.

12. Bölek B.M. Azərbaycan Xarici Ticarətinin Dünya İqtisadiyyatına İnteqrasiyası, Azərbaycan Universiteti "Müasir Dünyada İnteqrasiya və Müqavimət Prosesləri" Beynəlxalq Elmi Nəzəri Konfrans. Bakı, 2011, 0,36 ç.v.

13. Bölek B.M. Müasir Beynəlxalq Bazarın Öyrənilməsinin Aktual Problemləri, Lənkəran Dövlət Universiteti Lənkəran Regional Elmi Mərkəzi “Müasir Elmin Aktual Problemləri” Respublika Elmi Konfransının materialları, Lənkəran, 2011, 0,08 ç.v.

14. Bölek B.M. Azerbaycan ve Türkiye Arasında Bölgesel Ticarette Ulusal Paraların Kullanımı, Erzurum- Atatürk Üniversitesi "Uluslararası Katılımlı Bölgesel İşbirliği ve Kalkınma Sempozyumu" materialları, Erzurum, 2012, 0,4 ç.v.

15. Bölek B.M. (U.A Bölek ilə birgə) Karşılıklı Yatırım İmkanlarının Arttırılması Amacıyla Türkiye-Azerbaycan üniversiteleri Arasında Bilgi Bankası Kurulmasının Gereği ve Önemi, Mevlana Üniversitesi "Uluslararası Ekonomi ve Hukuk Sempozyumu" Konya, 2013, 0,32 ç.v.

16. Bölek B.M. (U.A Bölek ilə birgə) Beynəlxalq Bazarlar Sistemində Formullaşmış Müasir İqtisadi Vəziyyət və Post-keçid Ölkələrinin Dünya Ticarət Sisteminə İnteqrasiyası, Mevlana Üniversitesi "Uluslararası Ekonomi ve Hukuk Sempozyumu" Konya, 2013, 0,28 ç.v.

17. Bölek B.M. Azərbaycanın xarici Ticarətinin nəzəri Bazası və Modernləşmə zəruriliyi, Journal of Qafqaz University - Social Science, Bakı, 2013,0,28 ç.v.

18. Bölek B.M. Интеграция в мировую торговую систему стран подвергщихся трансформации, інвестції, практика та досвід Науково-практичний журнал No 2 січень 2013, 0,2 ç.v.

**Болек Беррин Мутлу кызы**

## Тенденции роста эффективности отношений внешней торговли Азербайджана

### Резюме

Долгосрочное социально-экономическое развитие Азербайджанской Республики зависеть от его способности расширить область эффективной торговли и экономических отношений с зарубежными странами и международными экономическими организациями в соответствии с национальными интересами страны.

В соответствии с современными условиями исследованы научно-исследовательские работы теоретических и методологических проблем с потенциальным ростом эффективности отношений внешней торговли Азербайджанской Республики, изложены специфики и разработаны методы оценки увеличения эффективности с помощью общих концептуальных заключений.

Анализированы современные торговые концепции систематическим и интегрированным способом с целью повышения эффективности в реализации внешнеторговых отношений Азербайджана, включая все ключевые особенности оцениваемого. Изучен механизм адаптации для обеспечения современного уровня международной торговли для Азербайджана, показана важность улучшения этого механизма в соответствии с особенностями отношений внешней торговли страны с изменениями, происходящими в контексте международной торговли.

Посредством вычислений, основанных на экономических моделях, идентифицируя возможные сценарии для вступления к ВТО и их уровень воздействия на структуру ВВП. Исследование подчеркивает ключевые элементы концепции эффективности роста внешнеторговых отношений на современном этапе развития и рекомендации основанные на интеграции общих заключений проводимого исследования.

**Bölek Berrin Mutlu qızı**

## Foreign Trade Relations Efficiency Growth Trends of Azerbaijan

## Summary

Long term socio-economic development of Azerbaijan Republic, meaningful and systemic economic reforms driven by global trends, building efficient foreign trade relations that can act as a catalyst in its integration into the world economy will largely depend on its ability to expand the scope of effective trade and economic relations with foreign countries and international economic organizations in line with national interests of the country.

The first chapter of the paper is concerned with the necessity for post-transition countries to adapt to modern situation of international trade with all supporting arguments, facts and figures being illustrated. Furthermore, analysis of modern trade concepts is being made in a systemic and integrated way with the aim of increasing efficiency in the realization of foreign trade relations of Azerbaijan including all key features being evaluated. While doing so adaptation mechanism for Azerbaijan to secure modern level of international trade has been studied and the importance of improving this mechanism in compliance with peculiarities of foreign trade relations of the country and in conformity with changes occurring in the context of international trade is being shown.

The second chapter involves with the complex analysis of foreign trade relations of Azerbaijan Republic during the years of independence, generalization of its generic nature with the exposure of established development trends.

In the last chapter the priorities in foreign trade system of Azerbaijan is being supported through the evidences, development assumptions of foreign trade through calculations based on economic models, possible scenarios for accession to WTO and their level of impact on the structure of GDP is being identified.

Hence, key elements of foreign trade relations efficiency growth concept in the modern stage of development is being highlighted and a number of recommendations made based on the integration of general conclusions of the study conducted.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ
ЭКОНОМИЧЕСКИЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**БОЛЕК БЕРРИН МУТЛУ КЫЗЫ**

# ТЕНДЕНЦИИ РОСТА ЭФФЕКТИВНОСТИ ОТНОШЕНИЙ ВНЕШНЕЙ ТОРГОВЛИ АЗЕРБАЙДЖАНА

**Специальность: 5310.01- "Мировая экономика"**

**А В Т Р Е Ф Е Р А Т**

**диссертации по присуждению научной степени
доктора философии по экономике**

**БАКУ-2014**

*Çapa imzalanıb 27. 12. 2013. Kağız formatı 60x84 1/16.*
*Həcmi 1,5 ç.v. Sifariş . Sayı 300.*

---

*" İqtisad Universiteti " Nəşriyyatı.*
*AZ 1001, Bakı, İstiqlaliyyət küçəsi, 6*